# Polisin fəaliyyəti dövrün tələblərinə uyğun təşkil edilir




**Bu gün cəmiyyətin bütün sahələri üçün vacib olan sabitliyi yaradan və qoruyan, vətəndaş asayişini mühafizə edən, dövlətin, vətəndaşların qanuni mənafelərinin və mülkiyyətinin hüquqazidd əməllərdən qorunması, insanların azad, sərbəst yaşaması üçün lazımi şəraitin yaradılması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən polislərin peşə bayramıdır.**

Hər peşənin fərqli xüsusiyyətləri, üstünlükləri və çətinlikləri var. Bu xidmət sahələrinin içində polisin əməyi çətinliyi və məsuliyyəti ilə daha spesifikdir. O, yuxusuz gecələri və istirahətsiz həftələri xidməti vəzifə öhdəliyi hesab edir, xalqa və qanuna məsuliyyətlə xidmət edir. Müəllim mənəviyyatın, həkim sağlamlığın, hakim ədalətin keşiyini çəkdiyi kimi, polis də ictimai təhlükəsizliyin və qanunçuluğun keşiyini çəkir, eyni zamanda cinayətkarlığa qarşı gecə-gündüz mübarizə aparır.

**(davamı 8-ci səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Polis peşəsi ağır peşədir. O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir". Məhz ulu öndərin məqsədyönlü siyasəti, hüquq-mühafizə orqanlarına diqqət və qayğısı nəticəsində polis müstəqil Azərbaycanın dövlətçilik tarixində sabitliyin, ictimai rifah və təhlükəsizliyin qarantına çevrildi. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ictimai təhlükəsizliyin etibarlı şəkildə qorunduğu və kriminal durumun nəzarət altına alındığı ölkələr sırasına daxil olub. Hazırda respublikamızda MDB və digər qonşu dövlətlərlə müqayisədə hər 100 min nəfərə düşən cinayətlərin sayı 40-50 faiz aşağıdır. Hətta cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ölkəmiz bəzi Şərqi Avropa, Amerika ölkələrini də qabaqlayır. Ona görə də cəmiyyətdə qanunun və ictimai təhlükəsizliyin qorunmasına cavabdeh olan hər bir polis əməkdaşından çeviklik, bilik, qabiliyyət və fədakarlıq tələb edilir.

Ölkəmizdə baş verən cinayətlərin 80 faizdən çoxu açılırsa, bu, böyük nailiyyət hesab olunur. Bu uğurlar cinayətlərin qarşısının alınması, açılması, istintaqı, cinayətkarların axtarışı, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin etibarlı təşkilindən qaynaqlanır. Azərbaycanda vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işləri beynəlxalq təşkilatlarda yüksək dəyərləndirir. Buna görə də ölkəmiz hazırda çoxsaylı beynəlxalq tədbirlərə, forumlara, konfranslara ev sahibliyi etməklə dünyada tolerantlıq məkanı kimi tanınır. Təbii ki, bu uğurların arxasında çətin və şərəfli xidmət aparan digər hüquq-mühafizə orqanları ilə yanaşı, Azərbaycan polisi də dayanır.



Azərbaycan polisinin yaranma tarixi keçmişə, ötən əsrin iyirminci illərinə təsadüf edir. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin milli hökumətinin tərkibində Daxili İşlər Nazirliyi yaradılıb. Cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək məqsədilə yaradılan ilk polis bölüyü də 1918-ci il iyulun 2-də Xalq Cümhuriyyəti dövründə təşkil edilib. Məhz buna görə də dahi şəxsiyyət, uzaqgörən siyasi xadim Heydər Əliyevin 24 may 1998-ci ildə imzaladığı Fərmana əsasən, hər il iyulun 2-si Daxili İşlər Orqanlarının Peşə Bayramı kimi qeyd olunur.

Ümummilli lider daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı mühüm qərarlar qəbul edib. Şəxsi heyətin məhz milli ruhda formalaşması nəticəsində 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edən nizami qüvvə milis, sonrakı illərdə Daxili Qoşun hissələri olub. Bu döyüşlərdə 1695 polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb, 1710 nəfər isə yaralanıb. Göstərdikləri igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb.

18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildikdən sonra ölkəmizin daxili işlər nazirliyi keçmiş SSRİ Daxili İşlər Nazirliyinin tabeliyindən çıxmış və həmin dövrdən suveren dövlətimizin nazirlik kimi fəaliyyətə başlamışdır. Müstəqilliyimizin sonrakı illərində də daxili işlər orqanlarının fəaliyyəti uğurlu olub. Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrini yerinə yetirərkən 99 polis əməkdaşı və hərbi qulluqçu həlak olub, 2640 nəfər xəsarət alıb.

Ulu öndərin dediyi kimi, "polis Azərbaycan dövlətinin, xalqımızın keşiyində duran mübariz bir orqandır". Müstəqillik illərində Azərbaycan polisinin qısa zamanda məşəqqətli yol qət etməsi və cinayətkarlara qarşı mübarizə aparması dahi şəxsiyyət Heydər Əliyevin polis orqanlarının fəaliyyətinə çox yüksək qiymət verməsinə zəmin yaratmışdı. Ölkə daxilində hakimiyyət uğrunda aparılan mübarizənin doğurduğu vətəndaş qarşıdurması, xarici qüvvələrin dəstəklədiyi Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü yeni müstəqillik qazanmış respublikanı fəlakətə sürükləyirdi. Vətənin belə ağır günlərində uzaqgörən siyasət xadimi Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışı Azərbaycanda vətəndaş qarşıdurmasına son qoymağa, ölkədə sabit inkişafın əldə olunmasına imkan verdi. Həyata keçirilən vacib və əsaslı tədbirlər ölkənin ictimai-siyasi mühitində hərtərəfli islahatların reallaşması ilə nəticələndi. Hüquq-mühafizə orqanlarının, eyni zamanda polisin fəaliyyətinin gücləndirilməsi, dövlətə, millətə sədaqətli şəxsi heyətin formalaşdırılması və qanunun aliliyini əsas prinsip kimi qiymətləndirən əməkdaşların peşə xidmətinə cəlb edilməsi istiqamətində önəmli addımlar atıldı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş islahatlara əsasən daxili işlər orqanlarının fəaliyyətini, həmçinin insan hüquq və azadlıqlarının təmin edilməsi mexanizmlərini tənzimləyən qanunvericilik bazası yaradıldı, nazirlik sistemində günün tələblərinə cavab verən yeni qurumlar təsis edildi. Həyata keçirilmiş islahatlar nəticəsində ölkədə mütəşəkkil cinayətkarlığa, sabitliyi pozan təhlükələrə qarşı əsaslı mübarizə başladı, vətəndaşlarımızın dinc, əmin-amanlıq içərisində yaşamalarına zəruri şərait yaradıldı. İctimai-siyasi sabitliyin yaradılması həm də milli iqtisadiyyatın inkişafına, xarici sərmayədarların Azərbaycana maraq göstərmələrinə təkan verdi.

Ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdiyi illər ərzində istər daxili münaqişələr, istərsə də mənfur erməni daşnakları ilə müharibədə Azərbaycan polisi xüsusi şücaət göstərmiş, Birinci Qarabağ müharibəsi zamanı vətənin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir.

Keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti 932 şəhid vermiş, 681 əməkdaş isə əlil olmuşdur. Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə 460 nəfər polis əməkdaşı, 511 nəfər Daxili Qoşunların hərbi qulluqçuları şəhid olmuş, 86 əməkdaş "Azərbaycan Bayrağı" ordeni, 247 əməkdaş isə müxtəlif orden və medallarla təltif edilmişdir.

İkinci Qarabağ müharibəsi zamanı Daxili İşlər Nazirliyinin əməkdaşları bütün şəhər və kəndlərimizdə, o cümlədən işğaldan azad edilən ərazilərdə təhlükəsizliyin təmin olunmasında qəhrəmancasına iştirak etdilər. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları vahid komandanlıq altında qəhrəmanlıq dastanı yazdılar. Bir-birinin ardınca azad olunan bölgələrdə üçrəngli bayrağımızı dalğalandıran mərd oğullarımızın arasında Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları da olub. Vətən müharibəsində qazanılan zəfərdə Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının igidliyi Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. Doğma yurdumuzun işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşmüş Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər əməyə yüksək dəyər verən, ədalətli və qüdrətli sərkərdə İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallara, o cümlədən dörd nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Təmkinli, cəsarətli, mərd polislərimiz işğaldan azad edilən torpaqlarda Azərbaycan qanunlarının keşiyindədir. Sevindirici haldır ki, artıq azad olunmuş şəhər və rayonlarımızda polis əməkdaşları dörd ildir ki, azad ərazilərdə xidmət edirlər. Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq yaradılan və hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların fəaliyyətinin təşkilinin DİN-ə həvalə edilməsi Azərbaycan polisinə göstərilən yüksək etimadın daha bir göstəricisi oldu. Ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad olunan şəhər və rayonlarımızda bu mühüm məsuliyyətin öhdəsindən layiqincə gələn daxili işlər orqanlarının əməkdaşları göstərilən etimadı doğrultmaq üçün gecə-gündüz öz xidmətlərini yüksək səviyyədə həyata keçirir, təhlükəsizliyi möhkəmləndirirlər.

Polisin fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyevin "Cinayətkarlığa qarşı mübarizədə polis işçiləri ön cəbhədədir. Bu gün Azərbaycanın uğurlu inkişafında, ölkəmizdə sabitliyin tam şəkildə bərqərar olunmasında, asayişin yüksək səviyyədə qorunması işində polis orqanlarının böyük xidmətləri var. Mən polisin işini yüksək qiymətləndirirəm" ifadəsi Azərbaycan polisinin xidməti vəzifələrini ali səviyyədə yerinə yetirdiklərinə görə verilən ən yüksək dəyərdir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir. Eyni zamanda vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir və hər zaman vəzifə borcuna sadiq qalaraq ona bəslənən inam və etimadı doğruldur. Prezident İlham Əliyev tərəfindən bu peşə bayramı ərəfəsində şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi və xidmətdə fərqlənən bir qrup əməkdaşın dövlət mükafatlarına layiq görülməsi barədə qəbul etdiyi qərarlar hər bir polis əməkdaşının gərgin əməyinə verilən yüksək qiymətidir.

Hazırda müasirləşmə tendensiyası DİN-in bütün orqan və hissələrini əhatə edir. Nazirliyin fəaliyyəti beynəlxalq standartlara uyğun təşkil edilib, maddi-texniki təminat təkmilləşdirilib, ən müasir texnologiyalarla təchizat yüksək səviyyəyə çatdırılıb, onlarla elektron xidmət, veb-sayt, "qaynar xətt" və digər informasiya resursları yaradılıb, polisin "ASAN xidmət" mərkəzlərində fəaliyyəti təşkil olunub. Vətəndaş məmnunluğunu təmin edən innovativ təşəbbüslər orqan və hissələrdə qanunların qorunmasının effektivliyini və operativliyini daha da artırıb.

İctimai sabitliyi, insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövləti, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən peşəkarcasına qoruyan Azərbaycan polisi vətəninə, xalqına ümummilli lider Heydər Əliyevin işıqlı, müqəddəs ideallarına sədaqətlə xidmət edir.

**Bayram SALMANOV,**
**"Respublika".**